# Diasporumuzun amalı Vətəni şərəflə təmsil etməkdir



**Prezident İlham Əliyevin sərəncamı ilə xalqlar arasında dostluğun möhkəmləndirilməsi və Azərbaycan diasporunun inkişafı sahəsində xidmətlərinə görə bir qrup soydaşımız təltif olunub. Onların arasında tanınmış aktyor və rejissor, Xalq artisti Cahangir Novruzov da var. O, "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu"na layiq görülüb.**

1995-ci ildən Türkiyədə yaşayan ünlü sənətkar 20 ildir ki, Adana şəhərində, Çukurova Universitetinin Dövlət Konservatoriyasının teatr bölməsində çalışır. O, bu şəhərdəki Azərbaycan Kültür və Həmrəylik Dərnəyinin sədr müavinidir. Xalq artisti bizimlə söhbətində bildirdi ki, diaspor fəaliyyətinə verilən bu qiymət minnətdarlıq doğurmaqla yanaşı, onu bu sahədə daha fəal olmağa həvəsləndirir:

— Açığı, belə bir xəbəri gözləmirdim. Son günlər bütün düşüncəm və diqqətim ailəmdə yaranmış bir problemə yönəlmişdi. Belə anlarda, ümumiyyətlə vətəndən kənarda insan hər şeydən çox mənəvi dayaq axtarır. Məhz bu həssas məqamda dövlətimizin göstərdiyi diqqət və qayğı, sadəcə, sevindirici deyil, ailəmizi ayaqda saxlayan böyük bir mənəvi dəstək oldu. Sanki, bu diqqət "tək deyilsən" mesajını verdi. O an hiss etdim ki, daxilimdə yığılıb qalan ağırlıq xeyli azaldı, qəlbimə sakitlik gəldi. Bu cür dəyər və etimad insanın gücünü artırır, ona yaşadığı çətinliklər qarşısında dayanmaq üçün yeni bir iradə və inam verir.

Cahangir müəllim onu da söylədi ki, sənət adamı üçün ən böyük mükafat xalqına və dövlətinə xidmət etdiyini hiss etməkdir:

— Biz sənət adamları harada olsaq da işimizlə vətənə xidmət edən insanlarıq. Bizim missiyamız təkcə səhnədə rol oynamaq deyil, milli kimliyi, mədəniyyəti, Azərbaycan adını ölkədən kənarda ləyaqətlə təmsil etməkdir. İnsan vətəni üçün, milləti üçün çalışırsa, həm də öz borcunu yerinə yetirir. Bu diqqət və ehtiram insan üçün son dərəcə qürurvericidir. Çünki belə məqamlarda anlayırsan ki, illər boyu görülən işlər, çəkilən zəhmət hədər getməyib, əvəzsiz qalmayıb.

İndiki mükafatlandırma təkcə bir sənət adamının deyil, ümumilikdə, vətənə xidmət edən hər kəsin əməyinə verilən yüksək dəyərin ifadəsidir. İnsan hiss edir ki, gördüyü işlər dövlətin və xalqın yaddaşında yaşayır, qiymətləndirilir. Bu baxımdan Azərbaycan–Türkiyə mədəni əməkdaşlığına xidmət etmək ikiqat şərəfdir.

Möhtərəm Prezidentimiz İlham Əliyev Azərbaycan xalqını uzun illərdən sonra başı dik, özünə inanan, gələcəyə ümidlə baxan bir millətə çevirən güclü və uzaqgörən liderdir. Bu gün ölkəmizin qazandığı uğurlar, milli qürurun və özünəinamın bərpası onun həyata keçirdiyi siyasətin, göstərdiyi qətiyyətli mövqenin nəticəsidir. Mənə göstərilən bu diqqəti də həmin böyük dövlətçilik baxışının, insana və əməyə verilən dəyərin təzahürü kimi qəbul edirəm. Buna görə də göstərilən etimada, diqqətə və yüksək qiymətə görə dərin hörmət və səmimi təşəkkürümü bildirirəm.

**Müsahibimiz vurğuladı ki, Vətəndən kənarda yaşadığı illərdə həmişə qəlbi Azərbaycanla döyünüb:**

– Düzünü desəm, Azərbaycanda yaşadığım illərdə vətəni bu qədər dərindən hiss etməmişdim. Uzaqda olanda insan kim olduğunu, haradan gəldiyini daha aydın anlayır. Azərbaycanlı olmağın məsuliyyəti məhz orada – vətəndən kənarda insanın çiyinlərinə daha ağır düşür. Əsas məsələ hamının etdiyini etmək yox, Vətəni yaxın-uzaqlarda tanıtmaq və milli kimliyi layiqincə təmsil etməkdir. Azərbaycanlı olmaq təkcə pasport göstəricisi deyil. Bu, davranışdır, təmsilçilikdir, örnək olmaqdır. Bu gün aldığım təbriklər, müəllimlərimin və professorlarımın zəngləri mənim üçün həm qürur, həm də böyük məsuliyyətdir. Sanki bir imtahandan keçdik və bu imtahan bizi daha diqqətli olmağa çağırır. Mən hər zaman Azərbaycan adına çalışmışam və bundan sonra da azərbaycanlı adını ləyaqətlə daşımağa davam edəcəyəm. Hörmətli və möhtərəm Prezidentimizə göstərdiyi diqqətə görə bir daha dərin minnətdarlığımı bildirirəm. Bu etimad mənim üçün həm şərəf, həm də məsuliyyətdir.

*Müsahibəni hazırladı:*
***Namiq QƏDİMOĞLU***
***XQ***

Xalq qəzeti .- 2026.- 13 yanvar (№06).- S.19.